Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# ABŞ Rusiya xarici işlər nazirinin müavininə viza verməyib

Sentyabr 22, 2026




Rusiya XİN

ABŞ Rusiya xarici işlər nazirinin müavini **Aleksandr Alimov**a Nyu-Yorkda BMT tədbirlərində iştirak etmək üçün viza verməyib. TASS agentliyi xəbəri Rusiya Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlar Departamentinin direktoru **Kirill Loqinov**a istinadla yayıb.

**"Rusiya Federasiyasının BMT çərçivəsində keçirilən tədbirlərə göndərdiyi nümayəndələrlə bağlı bütün viza müraciətlərinin nə vaxtsa tam təmin olunduğunu xatırlamıram"**, – o deyib.

Rusiya prezidentinin mətbuat katibi **Dmitri Peskov** deyib ki, viza məsələsi ABŞ hakimiyyəti ilə müzakirə olunacaq. Onun sözlərinə görə, bu addım BMT-nin mənzil-qərargahına ev sahibliyi edən ölkənin öhdəliklərini pozur.

Sentyabrın 22-də Nyu-Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası başlayır. Rusiya nümayəndə heyətinə xarici işlər naziri **Sergey Lavrov** rəhbərlik edir. Sentyabrın 23-də onun Nyu-Yorkda ABŞ dövlət katibi Marko Rubio ilə görüşü planlaşdırılır.

Sentyabrın 22-də Ukrayna prezidenti Volodimir Zelenski ilə ABŞ prezidenti Donald Trampın görüşəcəyi gözlənilir. Danışıqların əsas mövzusunun "enerji atəşkəsi" adlı razılaşmanın mümkünlüyü olacağı bildirilir.

Tramp son vaxtlar Ukraynanın Rusiyadakı neft emalı zavodlarına zərbələri məsələsinə dəfələrlə toxunub, bu hücumların dünya bazarında dizel yanacağının bahalaşmasına səbəb olduğunu bildirib. Zelenski bir gün əvvəl bəyan edib ki, Rusiya Ukraynanın mülki infrastrukturuna zərbələri dayandırarsa, Ukrayna da analoji deeskalasiya addımları atmağa hazırdır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur